**Müxbir hesabların açılması üçün tələb olunan sənədlər:**

Yerli banklar

1. Hesab üzrə sərəncam vermək hüququ olan şəxsin (şəxslərin) imza nümunələrinin və bankın möhürünün əksi (notarial qaydada təsdiq olunmuş 1 nüsxə).
2. Bankın nizamnaməsinin (həmçinin Nizamnaməyə edilən dəyişikliklərin) notarial qaydada təsdiq olunmuş surəti.
3. Dövlət qeydiyyatı reyestrindən çıxarışın notarial qaydada təsdiq olunmuş surəti.
4. Hesab üzrə sərəncam hüququna malik inzibatçının (imza-möhür nümunələrinə əsasən) Mərkəzi Bankda attestasiyadan keçməsini təsdiq edən attestasiya sənədinin surəti.
5. Səlahiyyətli şəxslərin şəxsiyyətini təsdiq edən sənədin surəti (imza-möhür nümunəsində adları qeyd edilmiş səlahiyyətli şəxslərə məxsus şəxsiyyət vəsiqələri).
6. İmza-möhür nümunəsinə uyğun olaraq hesab üzrə sərəncam vermək hüququna malik səlahiyyətli şəxslərin vəzifəyə təyin olunması haqqında sənədlərin surəti.

Xarici banklar

1. Bankın nizamnaməsinin və ya hüquqi statusunu əks etdirən digər sənədin, habelə qeydiyyatdan keçdiyi ölkədə müvafiq dövlət qurumu tərəfindən bank fəaliyyətinə icazə verən sənədin surətləri;

2. Bankın yerləşdiyi ölkədə qeydiyyatdan keçdiyini təsdiq edən sənədin, nizamnamənin (əsasnamənin), ən azı son maliyyə ili üçün auditor yoxlamasından keçmiş illik maliyyə hesabatlarının və auditor rəyinin surəti;

3. Bankın benefisiar mülkiyyətçiləri və bankın rəhbər(lər)liyi haqqında məlumat, onların şəxsiyyəti təsdiq edən sənədlərin surətləri, habelə hesab üzrə sərəncam vermək hüququ olan şəxsin (şəxslərin) imza nümunələrinin və bankın möhürünün əksi;

4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə nəzərdə tutulduğu halda, xarici bankın yerləşdiyi ölkənin qanunvericiliyi ilə tələb olunduğu halda həmin ölkənin səlahiyyətli orqanı tərəfindən (maliyyə bazarlarına nəzarət orqanı və ya digər səlahiyyətli qurum) müxbir hesabın açılmasına verilmiş icazə;

5. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə bankın daxili nəzarət sistemi və bu sahəyə məsul şəxsi barədə, bankın əsas fəaliyyət istiqamətləri və sağlam nüfuzu barədə, habelə hər hansı səlahiyyətli qurum tərəfindən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı banka qarşı istintaq hərəkətlərinin həyata keçirilməsi və/və ya nəzarət tədbirlərinin görülməsi barədə məlumat və bu məlumatı təsdiq edən sənədlər.